***Vüsalə QASIMLI*** *

# NAXÇIVANIN IX-XIII ƏSRLƏRİNİN METAL MƏMULATI

**Açar sözlər:** Naxçıvan, metalişləmə, misgərlik, zərgərlik
**Key words:** Nakhchivan, metalworking, coppering, jewelry
**Ключевые слова:** Нахчыван, металлообработка, занятие медника, ювелирное дело

Naxçıvanın əlverişli coğrafi şəraiti və təbiəti burada hələ erkən qədim daş dövründən əhalinin məskunlaşmasına imkan yaratmışdır. Naxçıvan Muxtar Respublikası Cənubi Qafqaz yaylasının cənub-şərqində yerləşir. Şimalda və şərqdə indiki Ermənistanla (sərhədin uzunluğu 224 km) qərbdə Türkiyə Cümhuriyyəti (11 km), cənubda İran İslam Respublikası ilə (153 km) həmsərhəddir.

Əlverişli coğrafi mövqeyi, faydalı qazıntıları, heyvandarlıq və əkinçilik üçün münbit torpağı, bitki və heyvanat aləminin olması da regionun istənilən sahədə inkişafına şərait yaratmışdı. Artıq orta əsrlərdə Naxçıvan Azərbaycanın inkişaf etmiş əsas bölgələrindən birinə çevrilmiş, burada elm və təhsil, sənətkarlıq və ticarət inkişaf etmişdi.

Bildiyimiz qədəri ilə müasir dövrdə olduğu kimi, qədim və orta əsrlərdə də hər bir dövlətin iqtisadi gücü onun xammal ehtiyatlarının zənginliyindən asılı idi. İstənilən hər bir ölkədə metallurgiya və metalişləmənin inkişafında filiz yataqlarının olması vacib amillərdən sayılırdı. Yəni, metalişləmə sənəti də digər sənətkarlıq sahələrində başlayır. Lakin, orta əsrlərdə iqtisadiyyatın bütün sahələrinin inkişafına təsir göstərən metalişləmə sənəti nümunələri torpaq altında çox tez korroziyaya uğradığından onların böyük əksəriyyəti öz əvvəlki formasını itirmişdir (1, 97).

Naxçıvanın sənətkarlıq mərkəzlərində metal həm hazır şəkildə yerli filiz istehsalçılarından, həm də ki dəniz və karvan yolları ilə gətirilən xammaldan alınırdı. Orta əsrlərin yazılı mənbələrində Azərbaycanın təbii ehtiyatlarının zənginliyi və ondan istifadə olunması haqqında az da olsa məlumat verilmişdir (3, 36) .

---

* **Qasımlı Vüsalə** - t.ü.f.d., aparıcı elmi işçi, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, v.gasimli@box.az

Moisey Kalankaytuklu Qafqaz Albaniyasının təbii zənginliklərindən bəhs edərkən yazırdı: "Dağlarında qızıl, gümüş, mis və sarı mum çıxarılır" (8,17).

Yazılı mənbələrdə Naxçıvanda hələ qədim dövrlərdə mədənlərin olması haqqında məlumat verilir. Məsələn, Həmdullah Qəzvini qeyd edirdi ki, Naxçıvan yaxınlığında, Acıyan şəhərində Karxana adlı mis mədəni fəaliyyət göstərmişdir (22, 57, 94).

XX əsrin ikinci yarısında Naxçıvanda ardıcıl geoloji kəşfiyyat işləri aparılmışdır. Nəticədə təsdiq olunmuşdur ki, bura mineral və filiz yataqları ilə zəngindir (13).

Naxçıvan Muxtar Respublikasında filiz ehtiyatları daha çox Ordubad rayonundadır. Burada əsasən, mis, mərgümüş və sürmə üstünlük təşkil edir. Bunlardan misal olaraq, Misdağ, Diyaxçay, Parağaçay, Göygöl, Ağyurd yataqlarını misal göstərmək olar.

Muxtar Respublikasında digər mis yataqları Sirabda, Vayxırda, Göydağda yerləşir (2, 38).

Naxçıvan ərazisində metallurgiyanın inkişaf etməsi üçün onun xammal bazasının zəngin olması nə qədər əhəmiyyətlidirsə, metalın əridilməsi üçün yanacaq ehtiyatının bol olması da bir o qədər əhəmiyyətlidir. Hələ qədim dövrlərdən metalın əridilməsi üçün Naxçıvan meşələrində kifayət qədər odun ehtiyatı olmuşdur. Məsələn, Batabat yaylağında təqribən 2550 hektar sahədə palıd, ağcaqayın və digər ağaclar bitir (2, 220). Bütün bunlar onu göstərir ki, Naxçıvan ərazisində metallurgiyanın, metalişləmə sənətinin inkişafı üçün hər cür əlverişli şərait olmuşdur. Yəni Muxtar Respublika ərazisində dağ-mədən işləri və metallurgiya, dəmirçilik, kənd təsərrüfatı alətləri istehsalı, təsərrüfatda və məişətdə işlənən əşyaların istehsalı, nalbəndlik, silahqayırma, misgərlik və metaltökmə sənəti, zərgərlik və bəzək əşyaları və s. tərkibi metal məmulatı olan sahələr inkişaf etmişdir.

Arxeoloji araşdırmalar Azərbaycanda metal emalının hələ eneolit dövründən başlandığını göstərir.

Orta əsrlərdə metallurgiya və metalişləmə artıq Azərbaycanın iqtisadi həyatının bütün sahələrinə təsir göstərən bir sənət sahəsi idi. Ölkədə bu sənətin inkişaf səviyyəsi sənətkarlığa, kənd təsərrüfatına, məişətə və xüsusilə hərb sənətinə güclü təsir edirdi. (Bəşirov Rəşid)

V.B. Baxşəliyev 1984-cü ildə Vayxır kəndi yaxınlığında, Naxçıvançayın sağ sahilində yerləşən filiz mədənlərində qədim istismar yeri aşkar





etmişdir (24, 83). Orta əsr filiz mədənlərinin izinə Babək rayonu ərazisinin Sirab. Şərur rayonunun Gümüşlü və Havuş mis və yarımmetal filiz yataqlarına rast gəlinmişdir (14, 65-70).

Fərhad İbrahimov hesab edir ki, orta əsrlərdə dağ-mədən işlərində metal alətlərlə yanaşı daş kürzələrdən də istifadə olunmuşdur (7, 21). Amma, Orta Asiyada tədqiqat aparan B.A. Litvinski qeyd edir ki, filizin çıxarılmasında daha çox metal alətlərdən istifadə olunurdu.

Onu da qeyd etmək lazımdır ki, Orta Asiyada X-XII əsrlərə aid arxeoloji abidədə belə bir dəmir alət aşkar olunmuşdur.

Naxçıvanda aparılan arxeoloji tədqiqatlar zamanı məlum olmuşdur ki, burada çıxarılan filiz mədəninin yaxınlığında olan metal əritmə kürələrində emal edilmişdir. Belə kürələrdən ikisi Sirab mis mədənlərinin yaxınlığında aşkar olunmuşdur (15, 68). Kürələrdən biri dördbucaqlı, digəri kvadrat formalıdır. Hər iki kürə güclü dağıntıya məruz qalmış, yalnız aşağı hissəsi nisbətən salamat qalmışdır.

Maraqlıdır ki, Qəbələ şəhərindən tapılan orta əsr kürələri oval formalıdır. F.Qədirov Qəbələ şəhərinin Qala hissəsində üç metaləritmə kürəsi aşkar etmişdir. Evliya Çələbinin yazdıqlarından məlum olur ki, orta əsrlərdə Naxçıvanda istehsal olunmuş metal başqa yerlərə də göndərilmişdir. 1647-ci il fevralın 6-da Şamaxıdan Bakıya gələn məşhur səyyah şəhərlə tanış olduqdan sonra yazırdı: "... Yüksək təpə üzərində dayanan bu gözəl dördbucaqlı qalanın qərb tərəfə açılan bir qapısı vardır. Qala qapısı Naxçıvan dəmirindən düzəldilmişdir (25, I.c., 166).

Artıq orta əsrlərdə metalişləmə iqtisadi həyatın bütün sahələrinə təsir göstərən aparıcı sənət sahəsi idi.

Metalişləmədə ən qabaqcıl yeri dəmirçilik tuturdu. Orta əsrlərdə dəmirçilik sənəti çox yüksək qiymətləndirilirdi. Azərbaycanda "Dəmirçi" və ya "Dəmirçilər" adlı 25 kənd var. Orta əsrlərdə belə kəndlərin adları əsasən yerli əhalinin məşğul olduğu əsas sənət növünün adı ilə əlaqədar olurdu. Çox güman ki, Naxçıvandakı Dəmirçi kəndi, Şərur rayonunun Yuxarı Yaycı kəndindəki "Dəmir gölü" adlı yer adları dəmirçilik sənəti ilə bağlıdır (3).

Azərbaycanın hər yerində olduğu kimi Naxçıvanda da dəmirçilik sənəti müəyyən pillələr keçərək, orta əsrlərdə özünün yüksək inkişaf səviyyəsinə çatmışdır. Orta əsr şəhər yerlərindən tapılan dəmir məmulatı həm təsərrüfat, həm də sənətkarlıq məhsulu cəhətdən diqqəti cəlb edir (7).

Naxçıvan Muxtar Respublikasında orta əsr yaşayış yerlərində aparılan arxeoloji qazıntılar zamanı bir neçə dəmirçixana aşkar olunmuşdur. 1968-ci ildə Babək rayonu ərazisində yerləşən Xaraba Şəhər yaşayış yerində A.B.Nuriyevin rəhbərliyi ilə aparılan arxeoloji tədqiqatlar zamanı Araz çayının sol sahilində dəmirçixana aşkar olunmuşdur (16, 85). Qazıntılar nəticəsində məlum olmuşdur ki, aşkar olunan divar qalıqları dəmirçixananın düzbucaqlı olduğunu və XII-XIV əsrlərə aid olduğunu göstərir.

Muxtar Respublikada aparılan arxeoloji tədqiqatlar zamanı Kəngərli rayonunun Yurdçu kəndi, Xaraba-Gilandan da dəmirçixanalar aşkar olunmuşdur.

Dəmirçixana qalıqları Azərbaycanın digər orta əsr şəhər və kənd yaşayış yerlərindən də tapılmışdır. Buna misal olaraq, Beyləqan (18; 123, 11), Qəbələ (9, 44), Şamaxı (26, 86), Şabran (10, 97-98), Canaxır, Salmanbulağı, Seyidli (4, 128-129) yaşayış yerlərinin arxeoloji qazıntılarını göstərmək olar.

Beləliklə, Naxçıvanda, eləcə də digər bölgələrimizdə aparılan arxeoloji qazıntılar nəticəsində müəyyən qədər olsa da dəmirçi emalatxanalarına təsadüf olunmuşdur.

Dəmir həm soyuq, həm də isti halda işlənə bilir. Soyuq işlənmə üsulu əsasən çilingərlikdə çox tətbiq olunurdu. Dəmirçixanalarda əmək alətlərinin, silahların, tikinti materialının, məişət avadanlığının hazırlanmasında əsasən, isti döymə üsulundan istifadə olunurdu (7).

I. Əmək alətləri 3 qrupa ayrılır; Təsərrüfat alətləri, məişət alətləri və əşyaları, bir də ki, dəmirçilik sənətində başqa peşə sahələri üçün nəzərdə tutulan alətlər.

II. Silahlar. Orta əsr silahlarına əsasən, qılınc, nizə, xəncər, qəmə, ox ucları, cəng yabası, təbərzin, döyüş bıçaqları daxil idilər.

III. Inşaat hissə və alətləri. Tikintidə istifadə olunan bir sıra metal hissələr (qarmaq, mismar, və s.), bənna və suraqçıların işlətdiyi bir sıra alətlər (mala, kəmçə, şaqul, daşyonan balta, küngə) dəmirçilər tərəfindən hazırlanırdı.

IV. Azərbaycanda tanınmış peşə və məşğuliyyət növlərindən olan, ovçuluq, balıqçılıq, dəlləklik, kömürçülük, sabunçuluq və s. ilə bağlı metal məmulatlarının xeyli hissəsi dəmirçixanada istehsal olunurdu (3).





Orta əsrlərdə dəmirçilik sənətində məmulatın növündən asılı olaraq üç növ xammal işlənirdi. Bunlar xalis dəmir, polad qarışıq dəmir və xaspolad idilər.

Naxçıvandakı Yurdçu orta əsr yaşayış yerindən xeyli miqdarda əkinçilikdə istifadə olunan alətlər tapılmışdır. Bunlara gavahın, kotan (xış), bel, biçində istifadə olunan oraq, dəryazın bir parçası daxildir (17, 45).

Azərbaycanın digər abidələrindən də dəmir gavahınlar tapılmışdır. Mingəçevirdə V-VI əsrlərə aid olan gavahın tapılması hələ ilk orta əsrlərdə Azərbaycanda gavahından geniş istifadədə olunmasını göstərir (21, 68). Bundan başqa Beyləqan və Qəbələdən də gavahınlar tapılmışdır. Orta əsr Beyləqan və Qəbələ şəhərlərinin arxeoloji qazıntılarında aşkar olunan gavahınların forması Naxçıvandakına çox yaxındır (5, 46-47).

Bundan başqa gavahınlara orta əsrlərdə Volqaboyunda, Gürcüstanda da rast gəlinmişdir.

Kotan qalığı Yurdçu abidəsində aşkar olunmuşdusa da, onun oxşarına Beyləqan qazıntılarında rast gəlinmişdir.

Yurdçu abidəsindən 1 ədəd bel nümunəsi də aşkar olunmuşdur (3). Beldən əkinçilikdə, suvarmada bağ-bostan işlərində, yerin qazılmasında və s. kimi işlərdə istifadə olunurdu. Belin oxşar nümunələrinə Beyləqanda, Qəbələdə, Sərkərtəpədə rast gəlinmişdir.

Əkinçilikdə istifadə olunan alətlərdən biri də biçin aləti olan oraqdır. Orta əsr oraqlarına Xaraba Şəhər və Yurdçuda aparılan arxeoloji tədqiqatlar zamanı aşkar olunmuşdur. Bunlar qövsvari oraqlar və ağızları ucda azca içəriyə doğru qatlanan oraqlar.

Orta əsrlərdə Naxçıvan ərazisində təsərrüfatda və məişətdə də metaldan hazırlanan alətlərdən istifadə olunurdu. Buna misal olaraq balta, kərki, bıçaq, qayçı və s. məişət alətlərini göstərmək olar. Baltadan ağacişləmə sənətində və təsərrüfatda müxtəlif işlərin görülməsində istifadə olunurdu. Naxçıvanda muzeydə balta nümunəsi qorunub saxlanılır.

Yurdçu yaşayış yerində korroziyaya uğramış kərki tapılmışdır. Naxçıvanda aparılan qazıntı işləri zamanı çoxluq təşkil edən bıçaqlar tapılmışdır. Bu onu göstərir ki, orta əsrlərdə Naxçıvanda bıçaqdan məişətdə, təsərrüfatda, ovçuluqda, hərb sənətində, sənətkarlıqda geniş şəkildə istifadə olunmuşdur. Muxtar Respublikada bıçaqlar əsasən, Xaraba Şəhərdə, Xaraba Gilanda (27, 116), Naxçıvan şəhər yerində (36, 128), Yurdçuda və Gəmiqayada (12, 42) tapılmışdır.

Naxçıvan orta əsr yaşayış yeridən bir ədəd qayçı qırığı tapılmışdır. Bu qayçı müasir dövrdəki dərzi qayçılarına oxşayır. Qayçıları formasına görə 3 qrupa bölürdülər.

Naxçıvanda Yurdçu yaşayış yerindən çörək bişirmədə və təndir işlərində istismar olunan şişlər də tapılmışdır. Bundan başqa Yurdçu yaşayış yerindən bir neçə ədəd mıx, bir ədəd iynə də aşkar olunmuşdur.

Xaraba Gilan orta əsr yaşayış yerindən XII-XIII əsrlərə aid mədəni təbəqəsindən bir ədəd üzəngi aşkar olunmuşdur (27, 116). Naxçıvan Dövlət Muzeyində iki ədəd buna oxşar üzəngi saxlanılır.

Muxtar Respublikada aparılan arxeoloji qazıntılar zamanı nallara da rast gəlinmişdir. Xaraba Şəhər yaşayış yerindən at, ulaq üçün nallar tapılmışdır. Şahbuz rayonunun Qızıl tapılan yaşayış yerindən, Gəmiqayadan və s. başqa yerlərdən də aşkar olunan nal nümunələri vardır. 2003-cü ildə N. Müseyibli Gəmiqayadan saxsı nümunələri ilə yanaşı dəmir bıçaq və aypara şəkilli at nalı tapmışdır.

Azərbaycanın başqa bölgələrindən Beyləqan, Qəbələ, Gəncə, Şamaxının Gülüstan qalası və şimal-şərqi Azərbaycanın orta əsr yaşayış yerlərindən tapılan dəmir nallar həmin dövrdə bu ölkədə nalbəndliyin ayrıca sənət sahəsi kimi inkişaf etdiyini göstərir.

Bütün yuxarıda sadaladıqlarımızla yanaşı orta əsrlərdə Naxçıvanda silahqayırma sənəti də inkişaf etmişdir.

Beləliklə, Naxçıvan Muxtar Respublikasının orta əsr abidələrində aparılan arxeoloji tədqiqatlar nəticəsində əldə olunmuş materiallar sübut edir ki, dəmirçilik bir sənət kimi Azərbaycanın digər bölgələrində olduğu kimi bu bölgədə də IX əsrdən başlayaraq öz inkişafının yüksək səviyyəsinə çatmışdır.

Yazılı qaynaqlardan məlum olmuşdur ki, orta əsrlərdə Azərbaycan şəhərlərində, o cümlədən Naxçıvanda misgərlik və zərgərliklə məşğul olan emalatxanalar olmuşdur.

Azərbaycanda əlvan metal istehsalı və onunla əlaqədar olaraq hazırlanmış və avadanlıqlarının və bəzək əşyalarının tarixi çox keçmişlərə gedib çıxır (3).

Misgərlər əsasən mis və tuncdan məişət əşyaları və bəzən də bəzək şeyləri düzəltməklə məşğul olurlar. Misgərlik sənəti böyük bir təkamül yolu keçərək orta əsrlərdə öz inkişafının ən yüksək mərhələsinə çatmışdır.





Misgər emalatxanaları dövrümüzə qədər gəlib salamat çatmasalar da, orta əsr yaşayış yerlərində əldə olunan çıxarlar, yarımçıq qalmış çıxarlar bu ərazilərdə misgərlik emalatxanalarının olmasını sübut edir (27, 117).

Misgərxanalar dəmirçixanalar kimi yerləşdiyi əraziyə uyğun olaraq, ölçüsü təqribən 3x5 metr arasında olan bir otaqlı tikilidən ibarət olurdu. Hündürlüyü 3-3,5 metr olan bu emalatxananın tavanında tüstünün bayıra çıxması üçün baca qoyulmuşdu. Misgərxana-ların daxili quruluşu, onun avadanlıqları dəmirçixanalara çox bənzəyirdi (3).

Naxçıvanın orta əsr arxeoloji abidələrindən tapılan əşyalar, qazıntılardan əldə olunan çıxarlar misgər alətləri haqqında müəyyən təsəvvürlər yaradır.

Misgər alətləri müxtəlif ölçülü çəkiclərdən, maşa və kəlbətindən, zindanlardan ibarətdir. Mis və tuncdan düzəldilən əşyalar əsasən məişətdə, təsərrüfatda, əsasən də bəzək işlərində istifadə olunurdu. Çəkiclər zərbə vurmaq üçün, maşalar və kəlbətinlər mis məmulatlarını kürədən qızdırarkən tutmaq üçündür. Zindanlar isə mis məmulatı döyüb müxtəlif formalara salmaq üçün işlədilən əsas alətlərdən biridir.

Etnoqrafik məlumatlar göstərir ki, misgərlər məmulatlar hazırlamaq üçün çəkicdən və zindandan daha çox istifadə edirdilər. Lahıclı misgərlər15-ə yaxın müxtəlif ölçülü və təyinatlı zindandan, 14 növ çəkicdən yararlanırdılar.

Naxçıvanın orta əsr arxeoloji abidələrindən çoxlu sayda maddi mədəniyyət nümunələri tapılmışdır.

1190-cı ildə Naxçıvanda istehsal olunmuş metal qab Parisdəki Lur muzeyində saxlanılır.

Azərbaycan tarixi muzeyində saxlanılan həvəngdəstə mükəmməl sənət əsəridir. Tuncdan hazırlanan bu qab Səlcuqlar dövründə Naxçıvanda hazırlanmışdır. Naxçıvanda hazırlanan həvəngdəstənin oxşarına Orta Asiyada aparılan arxeoloji qazıntılar zamanı rast gəlinmişdir.

Naxçıvanda aparılan arxeoloji qazıntılar zamanı orta əsr abidələrindən məişət əşyaları, əmək alətləri, bəzək əşyaları aşkar edilmişdir. Bunların əksəriyyəti Xaraba-Gilanın XII-XIV əsr mədəni təbəqəsində aparılan qazıntılar zamanı əldə edilmişdir. Həmin dövrə aid məişət və bəzək əşyaları Yurdçu, Naxçıvan və Xaraba Şəhər orta əsr yaşayış yerlərindən də tapılmışdır.

Xaraba-Gilanın şəhər yerindən 3 ədəd mis əşya gözəlliyi ilə diqqəti cəlb edir (27).

Bütün yuxarıda sadaladıqlarımızla yanaşı daha da artıq nümunələr göstərə bilərik.

Naxçıvanda aparılan arxeoloji qazıntılardan aşkar olunan və muzeylərdə saxlanılan məmulatlar onu göstərir ki, IX-XVII əsrlərdə misgərlik dəmirçilikdən ayrılaraq müstəqil sənət sahəsi kimi fəaliyyət göstərmişdir.

Orta əsrlərdə Azərbaycanda metalişləmə sənətinin inkişaf etmiş sahələrindən biri də zərgərlik olmuşdur. Zərgərlik sənəti mühüm bir inkişaf yolu keçərək orta əsrlərdə öz inkişafının yüksək mərhələsinə çatmışdır. Azərbaycanda olmuş ərəb tarixçisi İbn Hövqəl yazırdı ki, əlvan metal və ağ gildən məcmeyi, cam, kasa, tayqulp və dolçalar hazırlanmasında qızıl və gümüşdən istifadə olunurdu.

Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan ərazisində də arxeoloji qazıntılar zamanı qızıl və gümüş az hallarda tapılmışdır. Buna misal olaraq, Xaraba-Gilan və Xaraba Şəhəri göstərmək olar. Elə bu orta əsr yaşayış yerlərindən tapılan zərgərlik nümunələri zərgərliyin həmin dövrdə bir sənət sahəsi olduğunu göstərir. Əldə olunan bəzək nümunələri sancaqlar, üzüklər, bilərzik, sırğalar, müxtəlif muncuqlar olmuşdur (16, 49).

Xaraba Şəhər orta əsr yaşayış yerindən sırğalar, mis muncuq, sancaq qalığı aşkar olunmuşdur.

Bəhlul İbrahimov Xaraba Gilan qazıntılarından iki və ya üç məftildən eşilməklə düzəldilmiş bilərzik tapmışdır. Bu tip bilərziklərin ucu ilgəc, digəri qarmaq formasında idi. Belə bilərziklərdən Beyləqan (5, 55, 157), Qəbələ, Şabran şəhərinin Sərkərtəpə və Salmanbulağı yaşayış yerlərinin arxeoloji qazıntılardan da tapılmışdır. Xaraba Gilandan tapılan ucu ilan başı formasında olan bilərzik xüsusilə maraq doğurur (27, 114).

Bir çox tədqiqatçıların fikrinə görə ucları müxtəlif heyvan başları ilə tamamlanmış bilərziklər həm bəzək əşyası kimi, həm də dini əhəmiyyət daşımışdır (19, 29).

Azərbaycanın orta əsr abidələrindən xeyli miqdarda müxtəlif formalı üzüklər tapılmışdır. Bu üzüklər əsasən, mis və tuncdan düzəldilmişdir (7).

Naxçıvan Muxtar Respublikasında aparılan arxeoloji tədqiqatlar zamanı Xaraba Gilandan və Xaraba Şəhərdən bir neçə ədəd üzük tapılmışdır. Onların hamısı tuncdandır (27, 116).





Formalara görə üzükləri bir neçə qrupa bölmək olar. Üzüklərin bir hissəsi en kəsiyi dairəvi olan məftildən, digər hissəsi isə ensiz metal lentdən düzəldilmişdir (7).

Xaraba – Gilandan aparılan qazıntılar zamanı iki ədəd tökmə üsulu ilə tuncdan hazırlanmış üzüklər və möhür üzüklər də aşkar olunmuşdur. Möhür üzüklərdən irinin möhür hissəsi dördkünclü, digəri rombvari şəkildədir (27, 114). Beyləqandan da iki ədəd belə üzük tapılmışdır. Zərgərlik məmulatları içərisində kəmər bəzəyi, tunc gözmuncuğu da xüsusi yer tutur.

Məişətdə insanların, xüsusilə də qadınların istifadə etdiyi əşyalardan biri də güzgülər olmuşdur. Min illər boyu güzgülər mis və tuncdan hazırlanmışdır. Şüşəli güzgülərin isə Səlcuqlar dövründən istifadə edildiyi ehtimal olunur (3).

Naxçıvanın orta əsr arxeoloji abidələrindən aşkar olunan zərgərlik nümunələri az olsa da, aparılan müşahidələr göstərir ki, zərgərlik sənəti bu diyarda müəyyən inkişaf yolu keçmiş, orta əsr Azərbaycan zərgərliyin əsas mərkəzlərindən biri olmuşdur. Bu sənət Naxçıvan ərazisində öz əhəmiyyətinin XIX əsrə qədər saxlamışdır (11, 196).

Beləliklə, Naxçıvan Muxtar Respublikası ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində əldə olunan metal məmulatları bu ərazidə orta əsrlərdə metal sənətinin inkişaf etdiyini göstərir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Abbasova E.İ. "Şirvan orta əsrlərdə.(IX-XVII əsrlər)" Bakı: "Sabah", 2019, 245 s.
2. Abutalıbov M.H., Hacıyev V.C., İsayev Y.M. "Naxçıvan MSSR bitki örtüyü", Bakı, Elm, 1975, s.213-228.
3. Bəşirov R.Y. "Naxçıvanın orta əsrlər metalişləmə sənəti". Bakı: 2015, 232 s.
4. Dostiyev T.M. "Şimal-Şərqi Azərbaycan IX-XV əsrlərdə". Bakı, 2001, 396 s.
5. Əhmədov Q.M. "Orta əsr Beyləqan şəhəri". Bakı: Elm, 1979, 200 s.
6. Göyüşov R.B., Məmmədov K.A. "Naxçıvan şəhərində arxeoloji qazıntılar" AMM IX c. 1980, 117-130 s.
7. İbrahimov F.Ə. "Azərbaycanın orta əsr şəhərlərində metalişləmə sənəti" (IX-XIII əsrlər)". Bakı: Elm, 1988, 176 s.
8. Kalankaytuklu Moisey "Albaniya tarixi". Tərcümə və qeydlər. Z.M. Bünyadovundur. Bakı: Elm, 1993, 235 s.
9. Qazıyev S.M. "Qəbələ şəhərinin tarixi-arxeoloji tədqiqi. "AMM, vc., 1964, s. 44-53

10. Məmmədov V.Ə. "Şabranda aşkar edilmiş dəmirçi kürəsi haqqında" Bakı: Bilik:, 1992, s.97-98
11. Mustafayev A.N. "Azərbaycanda sənətkarlıq" Bakı: Altay, 1999, 440 s.
12. Müseyibli N.Ə. "Gəmiqaya". Bakı: Çaşıoğlu, 2004, 320 s.
13. Mahmudov H.İ., Bəktaşi Ş.S. "Faydalı qazıntılar və onların tərbiqi" Bakı: Azərnəşr, 1985, 176 s.
14. Novruzov Ə.İ. "Azərbaycanın son orta əsr filizçıxarma sənəti" (XIV-XVII əsrlər)" Azərb. SSR EA Məruzələri, c. XLVI , 1990, s.65-70.
15. Novruzlu Ə.İ. "Azərbaycanın orta əsr sənətkarlığı (XIV-XVII əsrlər)". Bakı: Elm, 1997, 522 s.
16. Novruzlu Ə.İ., Nuriyev A.B. "Azərbaycanın yeni tikinti sahələrində arxeoloji tədqiqatlar", I cild, "Xaraba Şəhər". Bakı: Elm, 2002, 71 s.
17. Novruzlu Ə.İ., Baxaliyev V.B. "Şərurun arxeoloji abidələri". Bakı:Elm, 1993, 184 s.
18. "Örənqala arxeoloji qazıntıların çöl-qeydiyyat kitabı" . 1959
19. Rəcəbova B.Ə. "Azərbaycanın orta əsr qadın bəzəkləri. (IV-XIII əsrlər). Bakı: Elm, 2000, 136 s.
20. Seyidov A.Q., Həsənova Ə.M. "Naxçıvanın qədim metalı" Bakı: Elm, 2005, 314 s.
21. Vahidov R.M. "Mingəçevir III-VII əsrlərdə". Bakı: Azərb, SSR EA nəşriyyatı, 1961, 16 s.
22. Ализаде А.А. «Борьба Золотой Орды и государства Ильханов за Азербайджан. Известия Аз. Фил. АН СССР, вып. I. 1949, Изд-во АН АЗ ССР, с.57-94.
23. Абибуллаев О.А. Раскопки халма Кюльтепе близ Нахичевани в 1955 г. МИА СССР, № 67; Труды Азербайджанской експедиции, Т.I, М-Л., 1959, с.120-125
24. Бахшалиев В.Б. «Древние горкие выpадотки в Вайхырском месторждения советской археологии в XI пятилетке». Баку : Элм, 1985, с. 83-88.
25. Эвлйя Челеви Книга путешествия в VIIтамах. Т.М. : Наука, 1979, 287с.
26. Джидди Г.О. «О результатах археологических исследований»1976 г.
27. Ибрагимов Б.И. «Средниевековый город Киран». Баку-Москва, 2000, 176 с.


## IX-XIII CENTURIES METAL PRODUCTS OF NAKHCHIVAN SUMMARY


The development of metallurgy and metalworking in the Nakhchivan territory and the availability of all conditions for the development of this field, the importance of ore, copper, silver, gold and so on such depositsare dealt in the article.The smithy area, which occupies a leading position in the metallurgy, has been widely studied and touched upon the results of archaeological excavations conducted in different regions of Nakhchivan.

Tools made of metal used in farm and household in Nakhchivan during the Middle Agesare dealt in the aticle, in particular, tools from metal found in Kharaba Gilan, Yurdchu and Gamigaya, as well as comparative analysis was made with the tools found in archaeological excavations carried out in Beylagan, Gabala, Shamakhi, Shabran and others. Attention has been paid to all areas of metalworking - coppering, jewelry, blacksmith and other spheres.






## МЕТАЛЛИЧЕСКИЕ ИЗДЕЛИЯ НАХЧЫВАНА IX-XIII ВЕКОВ РЕЗЮМЕ


В статье рассказывается о развитии металлургии и металлообработки в Нахчыване, а также о благоприятных условиях для развития металлургического ремесла, т.е. наличии здесь месторождений руды, меди, серебра, золота и др.

В статье, на основе археологических материалов, найденных в различных районах Нахчыванской АР, широко исследуется кузнечество, занимающее ведущее место в металлообработке.

В статье исследуется также вопрос изготовления металлических хозяйственных и бытовых орудий труда, которые использовались на территории Нахчывана в эпоху средневековья. В особенности исследуются металлические орудия труда, найденные в Хараба шехерс, Хараба Гилане, Юрдчу и Гямигая, а также проводится сравнительный анализ этих орудий с орудиями, найденными во время археологических раскопок из таких древних городов Азербайджана, как Бейлаган, Габала, Шемаха, Шабран и др.

Уделяется внимание всем отраслям металлургического ремесла – медному, ювелирному, кузнечному и др.